# Rusiya Donetsk və Luqanskın müstəqilliyini tanıdı



***Fevralın 21-də Rusiya Prezidenti Vladimir Putin "Luqansk Xalq Respublikası" və "Donetsk Xalq Respublikası"nın müstəqilliklərinin tanınması haqqında fərman imzalayıb. Məlumatı "Lenta.ru" verib.***

Fərmanların imzalanmasından əvvəl Putin Təhlükəsizlik Şurasının geniş tərkibli iclasını keçirib və Donbasda yaranmış vəziyyət müzakirə edilib. Sonra o, canlı yayımla xalqa müraciət edərək Donbasda vəziyyətin kritik həddə çatdığını bildirib. Rusiya Prezidenti, eyni zamanda, tarixə ekskurs edərək, deyib ki, Donbası bolşeviklər Ukraynaya bağışlayıblar. Bu məsələdə Lenin də ciddi səhvə yol verib. 1954-cü ildə isə Xruşşov Krımı Ukraynaya hədiyyə edib.

Putin bildirib: "Ukrayna bizim üçün sadəcə qonşu ölkə deyil. O, bizim tariximizin, mədəniyyətimizin, mənəvi məkanımızın ayrılmaz hissəsidir. Bunlar bizim yoldaşlarımız, qohumlarımızdır, o cümlədən təkcə həmkarlarımız, dostlarımız, keçmiş həmkarlarımız deyil, həm də qohumlarımızdır, bizimlə qanla, qohumluq əlaqələri ilə bağlı insanlardır".

Putinin xalqa müraciəti, eləcə də Donetsk və Luqanskın müstəqilliyinin tanınması ilə bağlı sənədlərin imzalanması prosesi "Rossiya-24" telekanalı ilə birbaşa yayımlanıb.

Donetskin müstəqilliyinin tanınması haqqında fərmanın bəndlərindən birində deyilir: "Donetsk Xalq Respublikası rəhbərinin Rusiya Federasiyası Müdafiə Nazirliyinə müraciəti ilə əlaqədar olaraq, "dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında" saziş bağlanana qədər Rusiya Silahlı Qüvvələri Donetsk Xalq Respublikasının ərazisində sülhməramlı funksiyaları yerinə yetirir". Eyni müddəa Luqanskla bağlı da nəzərdə tutulur. Dünən Rusiya qoşunlarının artıq Donetsk və Luqansk vilayətlərinə yeridildiyi barədə məlumatlar yayılıb.

Rusiya Təhlükəsizlik Şurasının iclasında Donbasla bağlı məsələnin müzakirəsindən sonra Ukrayna Prezidenti Volodimir Zelenski də Milli Təhlükəsizlik və Müdafiə Şurasının təcili iclasını çağırıb. O, eyni zamanda, ABŞ Prezidenti Co Bayden və Böyük Britaniyanın Baş naziri Boris Consonla da telefon əlaqəsi saxlayıb.

Prezident Volodimir Zelenski, eyni zamanda, xalqa müraciət edərək bəyan edib ki, "Rusiyanın hərəkətlərinə baxmayaraq Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri dəyişməz qalacaq".

Ukrayna KİV-in verdiyi məlumata görə, Zelenski bildirib ki, müstəqilliklərini elan etmiş "respublikalar"ın tanınması Rusiya Federasiyasının Minsk sazişindən çıxması deməkdir.

Ukraynanın dövlət başçısı ölkəsinin "Normand dördlüyü"nün Fövqəladə Zirvə Toplantısını çağırmaq təşəbbüsü ilə çıxış etdiyini qeyd edib. Onun sözlərinə görə, rəsmi Kiyev ATƏT-in Xüsusi Monitorinq Missiyasının Donbasda tam formatda fəaliyyət göstərməsində təkid edir. Kiyev siyasi-diplomatik nizamlanmaya sadiqdir və təxribatlara tabe olmayacaq. Zelenski deyib: "Ukrayna heç kimə heç nə verməyəcək".

ABŞ Prezidenti Donetsk və Luqanskın tanınması ilə əlaqədar hər iki quruma qarşı sanksiya tətbiq edib. Bununla bağlı fərmanda qurumların ayrı-ayrı şəxslərinin əmlakının və bəzi fəaliyyətlərinin bloklanması nəzərdə tutulur. Donetsk və Luqanska investisiya qoymaq, bu regionlardan ABŞ-a hər cür mal, xidmət və texnologiyaların idxalı qadağan edilir. Fərman bu regionla əlaqəli şəxslərin ABŞ-dakı əmlakına da sanksiya tətbiqini nəzərdə tutur.

ABŞ Dövlət Departamentinin mətbuat katibi Ned Prays bildirib ki, dünən ABŞ-ın Dövlət katibi Entoni Blinken və Ukraynanın Xarici İşlər naziri Dmitri Kuleba arasıda da telefon danışığı olub. Tərəflər Rusiyanın qondarma Donetsk və Luqansk "respublika"larının suverenliyini tanıması məsələsini geniş müzakirə ediblər. Diplomatlar yaranmış vəziyyətlə əlaqədar adekvat tədbirlər görmək barədə razılığa gəliblər. Blinken ABŞ-ın Ukraynaya dəstəyinin davam edəcəyini deyib.

Baş verənlərə münasibət bildirən Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel özünün twitter hesabında yazıb: "Ukraynada iki separatçı ərazinin tanınması beynəlxalq hüququn, Ukraynanın ərazi bütövlüyünün və Minsk razılaşmalarının kobud şəkildə pozulmasıdır. Aİ və tərəfdaşları birlik, möhkəmlik və həmrəylik nümayiş etdirərək buna qətiyyətlə reaksiya verəcəklər".

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, eyni zamanda, Ukrayna Prezidenti Volodimir Zelenskiyə zəng edib. Bununla bağlı o qeyd edib: "Avropa İttifaqının Ukrayna ilə tam həmrəy olduğunu ifadə etmək üçün Prezident Zelenski ilə danışdım. Aİ qətiyyətlə sizin tərəfinizdədir və Ukraynanın ərazi bütövlüyünü tam dəstəkləyir. Rusiyanın bu addımı beynəlxalq hüquqa və qaydalara əsaslanan beynəlxalq nizama qarşı hücumdur".

Dünən BMT Təhlükəsizlik Şurası da Ukraynadakı vəziyyəti müzakirə etmək üçün toplaşıb.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 23 fevral.- S.6.